RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 163 (9042) CÜMƏ AXŞAMI, 4 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Heç kəs unudulmur, heç nə yaddan çıxmır

## İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı qarşıya qoyulan prioritetlər uğurla həllini tapır

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Grand-Agro İnvitro" MMC-nin müəssisəsi ilə tanış olub, "Azbadam" MMC-nin emal zavodunun açılışında iştirak ediblər**



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Grand-Agro İnvitro" Məhdud Məsuliyyətli Cəmiyyətinin müəssisəsinin fəaliyyəti ilə tanış olublar və "Azbadam" Məhdud Məsuliyyətli Cəmiyyətinin badam emalı zavodunun açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Grand-Agro İnvitro" MMC-nin icraçı direktoru Taleh Zeynalov dövlət başçısına və birinci xanıma müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

İqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı qarşıya qoyulan prioritetlər uğurla həllini tapır. Eyni zamanda qeyri-neft sektorunda kənd təsərrüfatı məhsullarının payı artır. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunması və idxaldan asılılığın aradan qaldırılması deməkdir.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın fəaliyyəti ilə tanış olduqları "Grand-Agro İnvitro" Məhdud Məsuliyyətli Cəmiyyətinin müəssisəsi və "Azbadam" Məhdud Məsuliyyətli Cəmiyyətinin açılışı olan badam emalı zavodu məhz qeyri-neft sektoru və kənd təsərrüfatının inkişaf konsepsiyasının uğurla reallaşdırılmasının nəticəsidir.

→ 2

## Hərbiyönümlü qeyri-hökumət təşkilatları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar

Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı 5 dəfə genişlənməklə, postmüharibə dövründə şəhid ailələri və müharibə əlillərinə 3600, ümumiyyətlə, ötən dövrdə 12 min 500-dən çox mənzil və fərdi evin, 7450 nəfər müharibə əlilinə minik avtomobilinin verilməsi, ümumilikdə 330 müharibə əlilinin yüksək texnologiyalı son nəsil protezlərlə təmin olunması və digər tədbirlər onlara göstərilən qayğının bir nümunəsidir.

→ 11

## Dövlət növbəti dəfə vətən müdafiəçilərinin yanında olduğunu sübut etdi

**Danılmaz həqiqətdir ki, bu gün də Azərbaycan vətəndaşının sosial güvənliyinin təminatı dövlətin əsas diqqətində olan məsələdir.**

Bu istiqamətdə mütəmadi olaraq vətəndaşların xeyrinə qanunvericilikdə dəyişikliklər edilir və qərarlar qəbul olunur. Prezident İlham Əliyev də dəfələrlə bəyan etmişdir ki, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır.

Xüsusilə Vətənin müdafiəsində şəhid olan insanların ailələri və müharibə əlilləri dövlətin hərtərəfli qayğıkeşliyi ilə əhatə olunublar. 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələrinin və müharibə əlillərinin sosial-məişət problemlərinin həlli məqsədilə qanunvericilikdə yeniliklər edilməsi bunun bariz nümunəsidir.

Xəbər verildiyi kimi, 2022-ci il avqustun 2-də müharibə əlillərinə və şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə yeni sənəd imzalanmışdır. Nazirlər Kabinetinin həmin qərarına əsasən, əlilliyi müəyyən edilmiş bir sıra hərbi qulluqçulara, daxili işlər orqanları əməkdaşlarına və ya vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə başlanılmışdır. Qaydada bildirilir ki, 1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, kontuziya) alması, həmçinin xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına, onların vərəsələrinə birdəfəlik ödəmə verilir. Bu qayda həmin kateqoriyadan olan vətəndaşların ödəmələrini almasını tənzimləyir.

Qərarın qəbulu sosial ədalətin bərpası baxımından da önəmlidir. Bu fakt onu göstərir ki, dövlət bütün vətəndaşların qayğısına həssaslıqla yanaşır. Birdəfəlik ödəmə məbləği Prezidentin 23 dekabr 2021-ci il tarixli fərmanına uyğun olaraq ödənilir. Həmin fərmanda qeyd edilir ki, dövlət tərəfindən I dərəcəli əlilliyə görə 8800, II dərəcə əlilliyə görə 6600, III dərəcə əlilliyə görə 4400 manat birdəfəlik ödəmə verilir.

→ 11

## Azərbaycan Ordusu "Qisas" əməliyyatı keçirib

Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törədib.

Terror-təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Kazımov Anar Rüstəm oğlu şəhid olub. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürüb. Hazırda bölmələrimiz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdılıb, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilib. Nəticədə qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edilib və yaralanıb, həmçinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edilib.

Azərbaycan Respublikası dəfələrlə bildirib ki, üçtərəfli bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyi olaraq qalır. Həmin ərazilərin demilitarizasiyası, Ermənistan qoşunlarının oradan tam çıxarılması və qanunsuz erməni silahlı ünsürlərinin tərksilah edilməsi mütləq şəkildə labüddür.

Müdafiə Nazirliyi bəyan edir ki, Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutaraq bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks cavab tədbirləri daha da sarsıdıcı olacaq.



## Ombudsman Ermənistanın terror aktı ilə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayıb

"İnsan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlara müraciət edərək günahsız insanların həlak olması ilə nəticələnən və regionda sülhün təmininə ciddi təhdid olan Ermənistanın davamlı terror-təxribat əməllərini pisləyir, bu kimi cinayətkar əməllərə son qoyulması, beynəlxalq hüquqdan irəli gələn öhdəlikləri yerinə yetirməsi üçün Ermənistana hüquqi təsir tədbirləri göstərməyə dəvət edirik", - deyə bəyanatda vurğulanıb.

→ 3

## Azərbaycanın suveren ərazilərində törədiləcək istənilən terror və təxribata qarşı cavab tədbirləri daha ağır və sarsıdıcı olacaq

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin törətdikləri terror-təxribat əməllərinə cavab olaraq Azərbaycan Ordusunun keçirdiyi "Qisas" əməliyyatı ilə bağlı avqustun 3-də Müdafiə Nazirliyində media nümayəndələri üçün brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, brifinqdə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəis müavini polkovnik-leytenant Anar Eyvazov media nümayəndələrinə məlumat verib. Bildirilib ki, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri avqustun 3-də 2020-ci il 10 noyabr tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törədib.

→ 3

## Azərbaycan ərazisində baş verən insidentin bütün məsuliyyəti Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür

Müdafiə Nazirliyi tərəfindən məlumat verildiyi kimi, avqustun 3-də Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Laçın rayonu istiqamətində ordumuzun bölmələrinin mövqeləri intensiv atəşə tutulub. Nəticədə hərbi qulluqçu əsgər Kazımov Anar Rüstəm oğlu şəhid olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan tərəfi Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyini və qanunsuz erməni silahlı dəstələrinin hələ də Azərbaycan ərazisindən çıxarılmadığını dəfələrlə bəyan edib. Avqustun 3-də baş vermiş qanlı insident bir daha Ermənistanın üçtərəfli razılaşmanı kobud şəkildə pozduğunu, eyni zamanda iki dövlət arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərə xələl gətirdiyini nümayiş etdirir. Bu, həmçinin Ermənistanın beynəlxalq vasitəçilərin səylərinə hörmətsizliyinin göstəricisidir.

Azərbaycan ərazisində baş verən insidentin bütün məsuliyyəti qonşu dövlətin torpaqlarında qanunsuz silahlı birləşmələrini hələ də çıxarmayan Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

Azərbaycan ərazilərinin təhlükəsizliyi, sərhədlərinin bütövlüyünün təmin edilməsi üçün tərəfimizdən bütün müvafiq tədbirlər bundan sonra da davam etdiriləcək.

Allah şəhidimizə rəhmət eləsin!

# İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı qarşıya qoyulan prioritetlər uğurla həllini tapır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Grand-Agro İnvitro" MMC-nin müəssisəsi ilə tanış olub, "Azbadam" MMC-nin emal zavodunun açılışında iştirak ediblər











*Əvvəli 1-ci səh.*

**Prezident İlham ƏLİYEV:** Son vaxtlar fındıqçılıq Azərbaycanda çox inkişaf edir. Fındıq bağlarının sahəsini iki dəfədən çox artırmışıq. Fındıq ixracına görə biz indi dünyada üçüncü yerdəyik. Amma badam istehsalı, əfsuslar olsun ki, Azərbaycanda çox aşağı idi və daxili tələbatı ödəmirdi. Ona görə indi badamçılıqla da ciddi məşğul olmaq lazımdır. Bu meyvə sortları yerli sortlardır, yoxsa xarici sortlardır?

**Taleh ZEYNALOV:** Həm xarici sortlarımız, həm yerli sortlarımız var. Məqsədimiz də odur ki, yerli sortların içərisində məhsuldar və təbiətə uyğun çeşidləri seçib seleksiya yolu ilə onların artırılmasına nail olaq.

**Prezident İlham ƏLİYEV:** Burada çox vacib məsələ odur ki, əlbəttə, intensiv bağçılıq daha çox məhsulun həcminə istiqamətləndirilir. Amma bizim xüsusiyyətimiz və üstünlüyümüz odur ki, - hər zaman belə olub, bu gün də belədir, - bizdə yetişdirilən meyvə-tərəvəz təbiidir. Yəni, orqanikdir və onun xüsusi dadı var. Burada yerli sortlara daha çox üstünlük verilməlidir. Yəni, kəmiyyət dalınca getsək, bizim xüsusi dad verən o meyvələri itirə bilərik. Buna xüsusilə diqqət yetirin. Çünki bizim istər narımız olsun, almamız olsun, pomidorumuz olsun, xurmamız olsun, doğrudan da, xüsusi dada malikdir. Biz onu itirməməliyik.

❖ ❖ ❖

Qeyd edək ki, 2017-ci ildə fəaliyyətə başlayan "Grand-Agro İnvitro" MMC məhsuldar meyvə və digər bitki tingləri yetişdirməklə məşğuldur. Müəssisənin tətbiq edilən müasir texnologiyalar sayəsində ənənəvi üsullarla çoxaldılması mümkün olmayan, həmçinin yerli və xarici bazarda rəqabətədavamlı yüksəkkeyfiyyətli məhsullar yetişdirmək imkanları mövcuddur. Növ seçimi bazarın tələbatı və müştərinin sifarişinə uyğun olaraq müəyyən edilir.

"İnvitro" layihəsinə yatırılan investisiyanın ümumi məbləği 21 milyon manatdır.

İstixanalar müasir damcı üsulu və sisləmə sistemi ilə suvarılır. Müəssisənin beynəlxalq standartlara tam cavab verən laboratoriyası isə ən müasir texnologiyalarla təchiz olunub. İnkubasiya otaqlarının geniştutumlu olması sayəsində laboratoriya il ərzində 4 milyon ədəd müxtəlif cins və sort yetişdirmək imkanına malikdir.

Müəssisədə 84 nəfər daimi işlə təmin olunub.

❖ ❖ ❖

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın açılışında iştirak etdikləri badam emalı zavodu isə "Azbadam" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus istehsal müəssisəsidir.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azbadam" MMC-nin icraçı direktoru Anar Ağayev dövlət başçısına və birinci xanıma zavod barədə məlumat verdilər.

Qeyd edildi ki, layihənin həyata keçirilməsi iki mərhələdə planlaşdırılıb. Birinci mərhələ üzrə 2017-2019-cu illərdə Abşeron rayonunun Qala və Bilgəh qəsəbələrində Aralıq dənizi badam sortlarından olan Quara (160 hektar), Belona (95 hektar), Avijor (138 hektar) və Soleta (34 hektar) növlü ağaclardan ibarət badam bağları salınıb. Bağlara yatırılan ümumi investisiya məbləği 17 milyon manatdır.

İkinci mərhələdə yaradılan zavod ölkədə ilk badam emalı müəssisəsidir. İnşası 2021-ci ilin sentyabrında tamamlanan zavodun ümumi investisiya dəyəri 13,5 milyon manatdır. Bunun 10 milyon manatı Sahibkarlığın İnkişafı Fondu hesabına ayrılan güzəştli kredit, 3,5 milyon manatı isə təsisçi kapitalıdır.

**Mikayıl CABBAROV:** 2015-2019-cu illərdə ölkədə istehlak olunan təmizlənmiş badamın 90-95 faizi idxal edilirdisə, 2021-ci ilin nəticələrinə görə artıq biz ürəkaçan dinamikanı görə bilirik.

**Anar AĞAYEV:** İdxalı 50 faizə qədər azaltmışıq. 2024-cü ildə isə yalnız bizim bağ bütün Azərbaycanın istehlak həcmini qarşılaya biləcək. Digər bağlardan alacağımız badamları da emal edib ixrac edəcəyik.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı, öz bağlarınızın da sahəsini genişləndirin. Çünki badam yetişdirmək üçün Abşeron torpağı çox münbitdir. Burada boş sahələr çoxdur. Biz gələndə gördük ki, bütün yol boyunca sağ-sol zeytun bağlarıdır. Əvvəllər bu ərazi boş sahə idi, son vaxtlar əkilmişdir. Bu, böyük imkanlardır. Abşeron torpaqları zeytun, badam yetişdirmək üçün ən münbit torpaqlardır. Burada hələ boş torpaqlar var, onlardan mütləq istifadə etmək lazımdır. Çünki biz gələcəkdə badamı da fındıq kimi ixrac edəcəyik.

Dövlət başçısı İlham Əliyev zavodu işə saldı.

Bildirildi ki, zavodda məhsulun ilkin emalı, sındırılması, qurudulması və çeşidlənməsi nəzərdə tutulur. Müəssisə İspaniyanın "Jose Borrell S.A." brendinə məxsus avadanlıqla təchiz edilib. Zavodun illik emal gücü 2 min ton badam ləpəsidir.

Onu da deyək ki, "Azbadam" MMC investisiya təşviqi hesabına edilən güzəştlərdən yararlanaraq indiyədək xərclərinə 1 milyon manat məbləğində qənaət edib. Badam ləpəsinin ölkədaxili illik istehlak həcmi 750-800 ton təşkil edir. 2015-2019-cu illərdə ölkədə istehlak edilən badam ləpəsinin 90-95 faizi idxal olunurdu. Bu məqsədlə ölkədən hər il 6 milyon ABŞ dolları məbləğində valyuta xaricə çıxırdı. Müəssisənin fəaliyyəti nəticəsində 2024-cü ildən etibarən daxili bazarın tələbatı "Azbadam" MMC-nin emal müəssisəsi hesabına nəinki tam şəkildə təmin olunacaq, məhsullar Avropa İttifaqı ölkələrinə, Türkiyəyə, MDB və Mərkəzi Asiya respublikalarına, Hindistana, Birləşmiş Ərəb Əmirliklərinə və digər ölkələrə "Made in Azerbaijan" brendi ilə ixrac ediləcək.

Müəssisə əhalinin məşğulluq məsələsinin həllinə də töhfə verir. Burada 130 nəfər daimi işlə təmin olunub.





# Azərbaycan ordusu düşmən təxribatına layiqli cavab verdi

## Azərbaycan Respublikasının xarici işlər naziri ilə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi arasında telefon danışığı olub

**Avqustun 3-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı tərəflər arasında bölgədə cari vəziyyət və yaranmış gərginlik müzakirə olunub.

Nazir Ceyhun Bayramov son günlərdə Ermənistan tərəfindən həm iki dövlətin sərhəd bölgəsində, həm də Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində təxribatlar törədildiyi, avqustun 3-də qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Laçın rayonu istiqamətində Azərbaycan Ordusunun bölmələrinin mövqelərinin intensiv atəşə tutulması nəticəsində bir hərbi qulluqçumuzun şəhid olması faktını qarşı tərəfin diqqətinə çatdırıb. Azərbaycan Silahlı Qüvvələrinin öz suveren ərazilərində hərbi təxribatlara adekvat cavab tədbirləri həyata keçirdiyi vurğulanıb.





Nazir Ceyhun Bayramov Ermənistan tərəfinin bu təxribatlarının Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli bəyanatların, eləcə də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan liderləri arasında bəyanatların kobud pozuntusu olduğunu və vasitəçilik səylərinə xələl gətirdiyini bildirib. Nazir 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatından irəli gələn öhdəliklərə zidd olaraq indiyə qədər Ermənistan silahlı qüvvələrinin və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərindən tam çıxarılmadığını və bunun yolverilməz olduğunu vurğulayıb. Ermənistan tərəfindən götürülmüş öhdəliklərin yerinə yetirilməməsinin bölgədə yaşanan gərginliyin əsas səbəbi olduğu diqqətə çatdırılıb.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycanın suveren ərazilərində törədiləcək istənilən terror və təxribata qarşı cavab tədbirləri daha ağır və sarsıdıcı olacaq

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin törətdikləri terror-təxribat əməllərinə cavab olaraq Azərbaycan Ordusunun keçirdiyi "Qisas" əməliyyatı ilə bağlı avqustun 3-də Müdafiə Nazirliyində media nümayəndələri üçün brifinq keçirilib.




AZƏRTAC xəbər verir ki, brifinqdə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəis müavini polkovnik-leytenant Anar Eyvazov media nümayəndələrinə məlumat verib.

Bildirilib ki, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri avqustun 3-də 2020-ci il 10 noyabr tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törədib. Nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Kazımov Anar Rüstəm oğlu şəhid olub.

Qeyd olunub ki, bundan əlavə qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirməyə və orada yeni döyüş mövqeləri qurmağa cəhd göstərib.

Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər bölmələrimizin nəzarətinə götürülüb. Hazırda ordumuz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür.

Uğurlu "Qisas" əməliyyatı çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdılıb, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilib. Nəticədə qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edilib və yaralanıb, həmçinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatı məhv edilib.

"Azərbaycan Respublikası dəfələrlə bildirib ki, üçtərəfli Bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyi olaraq qalır. Həmin ərazilərin demilitarizasiyası, Ermənistan qoşunlarının oradan tam çıxarılması və qanunsuz erməni silahlı ünsürlərinin tərk-silah edilməsi mütləq şəkildə həyata keçirilməlidir.

Müdafiə Nazirliyi bəyan edir ki, Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutaraq bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks-cavab tədbirləri daha ağır və sarsıdıcı olacaq", - deyə A.Eyvazov bildirib.



## Ombudsman Ermənistanın terror aktı ilə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayıb

İnsan tələfatı ilə nəticələnən, Ermənistanın törətdiyi növbəti terror aktı ilə bağlı Azərbaycan Ombudsmanı Səbinə Əliyeva müraciət ünvanlayıb.



AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir: "3 avqust 2022-ci il tarixdə Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törədib. Nəticədə Azərbaycan əsgəri Kazımov Anar Rüstəm oğlu şəhid olub. Bununla yanaşı, qeyri-qanuni erməni silahlı dəstələri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən yüksəklikləri ələ keçirməyə və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərib.

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalandığı vaxtdan bu günədək Ermənistan davamlı olaraq terror təxribat əməlləri törədərək günahsız insanların həyatlarını itirməsinə, münaqişənin yenidən alovlanmasına səbəb olur.

Regionda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərinin davam etdirildiyi bir zamanda Ermənistan tərəfinin sülh yaratma prosesinə ciddi təhlükə yaradan bu kimi əməlləri bizi olduqca narahat edir".

Bəyanatda o da qeyd olunub ki, qanunsuz erməni silahlı qüvvələri tərəfindən törədilmiş növbəti terror aktı ilə Ermənistan üçtərəfli razılaşmanı kobud şəkildə pozduğunu, eyni zamanda regionda sülhə və sabitliyə xələl gətirdiyini, iki dövlət arasında münasibətlərin normallaşmasını istəmədiyini, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizliyini bir daha nümayiş etdirib.

"İnsan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlara müraciət edərək günahsız insanların həlak olması ilə nəticələnən və regionda sülhün təmininə ciddi təhdid olan Ermənistanın davamlı terror-təxribat əməllərini pisləyir, bu kimi cinayətkar əməllərə son qoyulması, beynəlxalq hüquqdan irəli gələn öhdəlikləri yerinə yetirməsi üçün Ermənistana hüquqi təsir tədbirləri göstərməyə dəvət edirik",- deyə bəyanatda vurğulanıb.

## Azərbaycan Ordusunun əsgəri şəhid olub

Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri avqustun 3-ü səhər saatlarında Laçın rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini intensiv atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nəticədə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kazımov Anar Rüstəm oğlu aldığı güllə yarasından şəhid olub. Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olan hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, onlara səbir diləyir! Allah rəhmət eləsin!

Bölmələrimiz tərəfindən müvafiq tədbirlər görülüb.

# Mükəmməl islahatlar modeli

### Azərbaycan Prezidentinin fərmanı elmimizin inkişafında yeni bir mərhələnin əsasını qoydu

Hər bir dövlətin uzunmüddətli və dayanıqlı inkişafı elmə verilən dəyərlə bağlıdır. Elm cəmiyyəti irəli aparır, qarşıya qoyulmuş böyük hədəflərə çatmasına, qazanılmış nailiyyətlərin qorunaraq daha da genişləndirilməsinə kömək göstərir. Azərbaycanda elmin inkişafı, elmlə ölkənin sosial-iqtisadi, mədəni həyatının vəhdəti, alimlərimizin qlobal elm mühitində özlərinə layiqli yer tuta bilmələri Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə də mühüm yer tutur.

Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən toplantılarda, elm adamları ilə görüşlərində dövlət rəhbərimiz hər zaman elmə, alimlərə böyük dəyər vermiş, dövlətimizin bu sahədə çalışan insanlara yüksək münasibətini ifadə etmiş, onların fəaliyyətinə şərait yaradılması, elm adamlarını qayğılandıran müxtəlif məsələlərin həlli istiqamətində məqsədyönlü addımlar atmışdır. Ölkəmizdə Elmin İnkişafı Fondunun yaradılması, müvafiq elmi layihələrin maliyyələşdirilməsi, AMEA-nın bir çox institutlarına elmi tədqiqatlar üçün yeni avadanlıqların alınması, ayrı-ayrı sahələrdə çalışan vətəndaşlarımız kimi AMEA əməkdaşlarının da maaşlarının müntəzəm şəkildə artırılması bunun təsdiqidir.

### AMEA yenə də fəaliyyətini davam etdirir

Artıq elə bir dövr gəlib çatıb ki, bu sahədə fundamental dəyişikliklərə ehtiyac var. Müasir texnologiyalar, yeniləşən strukturlar, ən nəhayət, dəyişən insanlar elm sahəsində də köklü islahatların aparılmasını aktuallaşdırır. Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanı ilə ölkəmizdə Elm və Təhsil Nazirliyinin yaradılması da bu məqsədə xidmət edir. Müvafiq fərmanla Elm və Təhsil Nazirliyinə elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər həvalə edilib. Nazirliyin yanında 2 yeni agentlik yaradılıb və AMEA-nın bir sıra elmi müəssisə və təşkilatları yeni yaradılmış Elm və Təhsil Nazirliyinin tabeliyinə verilib.

Bu proses əsla AMEA-nın ləğv olunması demək deyil, əksinə, elm və təhsilin inteqrasiyasında yeni mərhələnin başlanğıcıdır. AMEA humanitar yönümlü bir sıra elmi müəssisələri ilə öz fəaliyyətini yeni inkişaf prioritetlərinə uyğun davam etdirəcək. Bu fərman müasir dünyamızın çağırışlarından, dövrün inkişaf məntiqindən irəli gələn tarixi bir addımdır və müsbət nəticələrinə zamanla şahid olacağıq.

### İdeya, texnologiya, məhsul

Elm həmişə iqtisadi inkişafın hərəkətverici qüvvəsi rolunda çıxış edib. Bu gün isə yeni elmi kəşflər, tətbiqi elmlərin ortaya qoyduğu texnologiyalar sayəsində dünyanın iqtisadi mənzərəsi dəyişir. Elm tutumlu sahələr ayrı-ayrı ölkələrin iqtisadiyyatında aparıcı rol oynayır. Bu gün dünyanın ən zəngin ölkələri heç də böyük təbii resurslara malik ölkələr deyil, elmi ideyalar yaradan və bu ideyaları məhsula çevirib satmağı bacaran ölkələr sayılır. Bu zəncirvari proses belə baş verir: alimlər laboratoriyalarda elmi ideyalar üzərində çalışır, müxtəlif eksperimentlərin, sınaqların, təcrübələrin köməyi ilə hər hansısa elmi ideyanı nəzəri cəhətdən formalaşdırıb əsaslandırır, texnoloqlar həmin ideya əsasında məhsul prototipini yaradır, biznes qurumları isə bu məhsulun kütləvi istehsalını və satışını həyata keçirərək iqtisadi dəyər yaradırlar. Beləliklə, hər üç tərəf bu prosesdən qazanmış olur.

### Vəziyyət müsbətə doğru dəyişəcək

Azərbaycanda çox güclü elmi ənənələr var. Bu gün dünyanın tanınmış elmi mərkəzlərində, universitetlərində çalışan azərbaycanlı alimlərin xoş sorağı, mühüm elmi nailiyyətlərdə imzalarının görünməsi bu ənənələrin davam etdiyini göstərir. Amma razılaşaq ki, bu gün qapılarını mütərəqqi qlobal yeniliklərə açmış Azərbaycanın elmi mərkəzlərinin dünya elminə fəal şəkildə inteqrasiyasına daha çox ehtiyac var. Kommunikasiya imkanlarının genişlənməsi, dünyanın mobilləşməsi, əldə olunmuş elmi nəticələri yüksək reytinqli elmi nəşrlərdə təqdim etmək imkanları, ayrı-ayrı qlobal layihələrə qoşularaq xaricdəki həmkarlarla müştərək araşdırmalar aparmaq fürsəti buna əlverişli şərait yaradır. Nəzərə almaq lazımdır ki, elm, xüsusilə də tətbiqi elmlər məhəlli xarakterdən uzaqdır. Mühüm elmi nailiyyətlər haqqında yalnız o zaman söhbət açmaq mümkündür ki, bu nailiyyətlər qlobal çevrədə maraq və fayda yaratsın.

Son illər Azərbaycan alimlərinin qlobal indeksli jurnallarda çap olunmaları, xarici elmi mərkəzlərin layihələrində iştirakı sahəsində müəyyən irəliləyişlər nəzərə çarpsa da, belə az sayda istisnalar ümumi mənzərəni dəyişmirdi. AMEA-nın elmi-tədqiqat mərkəzlərində ümumi ətalət ruhunun olması isə bir reallıq idi. Bunun da müxtəlif səbəbləri var. AMEA bir təşkilat olaraq ötən əsrin 40-cı illərində, o dövrün tarixi şəraitində, mövcud şərtləri daxilində yaradılmış bir təsisatdır. Uzun illər ərzində bu təşkilat üzərinə düşən vəzifələri şərəflə yerinə yetirib. Azərbaycan elminin, mədəniyyətinin tərəqqisində, cəmiyyətin sosial-iqtisadi inkişafının nəzəri əsaslarının, milli dövlətçilik ideologiyasının formalaşmasında əhəmiyyətli rol oynayıb, böyük bir alim nəslinin yetişməsinə kömək göstərib. Amma AMEA-nın mövcud strukturunun dövrün tələblərinə artıq cavab verməsi, ölkəmizin ümumi inkişaf ahəngi ilə ayaqlaşa bilməsi hər şeyin düzgün, optimal şəkildə qurulmuş strukturdan, səmərəli, şəffaf idarəetmədən, resurslardan effektiv şəkildə faydalana bilməkdən başlanır. AMEA-nın mövcud strukturu bütün bu tələblərə, dövrün inkişaf prioritetlərinə uyğun gəlmirdi. Dövlət rəhbərimizin müvafiq fərmanı bu istiqamətdə vəziyyəti müsbətə doğru dəyişəcək.

Elmi fəaliyyət hər nə qədər mənəvi zövq olsa belə, alimin də layiqli həyata, yüksək maddi təminata ehtiyacı var. Elm adamları cəmiyyətin yüksək sosial statusa malik zümrəsidir, onların həyat və məişəti, dolanışıq səviyyəsi bunu tamamlamalıdır.

Ən narahatedici məqamlardan biri isə yüksəkpotensiallı gənclərin elmdən uzaq düşmələri idi. Elmi fəaliyyətə maraq göstərən gənclər, adətən, bilik və bacarıqlarına, yüksək hazırlıqlarına, yaradıcılıq qabiliyyətlərinə, xarici dil biliklərinə görə ali məktəblərin ən uğurlu, hazırlıqlı, seçilmiş, ümidverən məzunları olur. Onlar maddi amillərə görə arzuladıqları həyatı qura bilməyəcəklərini görəndə başqa sahələrə üz tuturdular. Əmək bazarında belə gəncləri "əldə çıraqla axtaran" özəl şirkətlər isə yüksək əməkhaqqı təklifi ilə onları dərhal işə götürüb potensiallarından istifadə etməyə başlayırdılar. İtirən yenə də elmimiz olurdu, bu sahədə nəsillərin yenilənməsi baş vermir və qeyri-normal vəziyyət yaranırdı.

Son vaxtlar AMEA-da və ümumən Azərbaycan elmində islahatlarla bağlı səsləndirilən mütəmadi çağırışlar çoxsaylı suallarla üzləşirdi: islahatların hansı səmtdə aparılması, vəziyyəti müsbətə doğru dəyişmək üçün nələrin edilməli olması, hansı addımların atılması çoxlarına aydın deyildi. Azərbaycan Prezidentinin müvafiq fərmanı isə mükəmməl bir islahat modeli ortaya qoyaraq bütün bu suallara cavab verdi. Bu mühüm dövlət sənədinin məzmunu, müəyyən etdiyi istiqamətlər ilk növbədə xarici təcrübənin diqqətlə öyrənildiyini, bütün detalların nəzərə alındığını, ən mütərəqqi təcrübələrin tətbiq olunduğunu göstərir.

### Elm və təhsilin vəhdəti

Dünyanın bütün inkişaf etmiş ölkələrində elmlə təhsil vəhdətdədir. Əksər aparıcı universitetlərin elmi mərkəzləri var və bu mərkəzlərdə mühüm elmi nəticələr ortaya qoyulur.

Azərbaycanda Elm və Təhsil Nazirliyinin yaradılması, AMEA-nın bir çox elmi müəssisələrinin bu nazirliyin tabeliyinə verilməsi belə bir təcrübənin ölkəmizdə də öz yerini tutmasına şərait yaradacaq. İstedadlı gənclər hələ tələbə ikən elmi fəaliyyətə cəlb olunacaq. Müxtəlif layihələrdə onların potensialından, bilik və bacarıqlarından istifadə ediləcək. Xarici elmi mərkəzlərlə əlaqələr genişlənəcək, birgə layihələr üzərində elmi tədqiqatlar aparılacaq. Fərman, yeni idarəetmə modelinin tətbiqi əsl alimlərin fədakar əməyinin layiqincə qiymətləndirilməsinə imkan verəcək.

Eyni zamanda humanitaryönümlü bir sıra elmi müəssisələrin öz fəaliyyətini AMEA tərkibində yeni inkişaf prioritetlərinə uyğun davam etdirməsi xalqımızın milli-mənəvi dəyərlərinin, tariximizin, mədəniyyətimizin, milli ideologiyamızın fundamental şəkildə işlənməsinə şərait yaradacaq. AMEA-da seçki ənənələrinin saxlanması, əlaqələndirmə və problem şuralarına rəhbərlik mütərəqqi təcrübələrin də qorunmasına, bu sahədə işlərin koordinasiya edilməsinə kömək göstərəcək.

Azərbaycan Prezidentinin müvafiq fərmanı hər cəhətdən elmimizin inkişafında yeni bir mərhələnin əsasını qoyur. Yüksək keyfiyyət meyarı bu mərhələnin əsas göstəricisi olacaqdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Prezidentinin "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2012-ci il 6 iyul tarixli 667 nömrəli, "Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2012-ci il 13 dekabr tarixli 760 nömrəli, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 509-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 29 dekabr tarixli 802 nömrəli, "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"nin təsdiqi barədə" 2013-cü il 24 aprel tarixli 865 nömrəli, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" 2013-cü il 10 dekabr tarixli 45 nömrəli, "Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2013-cü il 19 dekabr tarixli 55 nömrəli və "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2014-cü il 3 fevral tarixli 100 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 667 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 676; 2017, № 3, maddə 353; 2018, № 11, maddə 2270) 4.5-ci bəndində "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 dekabr tarixli 760 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1234; 2013, № 12, maddə 1522) 10.2-ci bəndində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 509-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 802 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1276; 2013, № 12, maddə 1532) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissə ləğv edilsin;

3.2. 5-ci, 6-cı hissələrdə və 8.1-ci bənddə "Vergilər Nazirliyinə onun" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin;

3.3. 7-ci hissədə "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə, "Vergilər Nazirliyinə onun" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 379, № 10, maddə 1156; 2014, № 5, maddə 477, № 6, maddə 646; 2016, № 8, maddə 1384; 2019, № 2, maddə 240; 2021, № 5, maddə 455) ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"nin 5.0.7-1-ci yarımbəndindən "Azərbaycan Respublikasının Vergilər Nazirliyinə," sözləri çıxarılsın.

5. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli 45 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1512; 2017, № 3, maddə 353; 2018, № 6, maddə 1198) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 19 dekabr tarixli 55 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1522; 2014, № 9, maddələr 1027, 1067) 9-cu və 10-cu hissələrində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

7. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 fevral tarixli 100 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 107, № 9, maddə 1027, № 10, maddə 1175; 2016, № 9, maddə 1464; 2017, № 8, maddə 1521; 2019, № 9, maddə 1397) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3.1.4-cü yarımbənddə "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

7.2. 5-ci hissədə ismin müvafiq hallarında "Vergilər Nazirliyi" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin;

7.3. 6-cı hissədə "Vergilər" sözü "İqtisadiyyat " sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" 2018-ci il 8 oktyabr tarixli 299 nömrəli, "Özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu il 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1527-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 1 aprel tarixli 601 nömrəli, "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 11 aprel tarixli 622 nömrəli, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 15 aprel tarixli 634 nömrəli, "Şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsinin həmin şəhər və rayonların sərəncamında saxlanılması və istifadəsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 3 iyun tarixli 719 nömrəli və "İdxal-ixrac əməliyyatları üzrə büdcə gəlirlərini təmin edən qurumların birgə nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2019-cu il 11 iyun tarixli 734 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 8 oktyabr tarixli 299 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 1999) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

2. "Özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu il 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1527-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 aprel tarixli 601 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 601) 2.2-ci bəndində "Vergilər" sözü "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622; 2020, № 1, maddə 12, № 4, maddə 424, № 6, maddə 708; 2021, № 2, maddə 119, № 5, maddə 452, № 6 (I kitab), maddə 574; 2022, № 2, maddə 116; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 aprel tarixli 1644 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 16.1-1-ci bənd əlavə edilsin:

"16.1-1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (bundan sonra - Dövlət Vergi Xidməti) üzrə:

16.1-1.1. Dövlət Vergi Xidmətinin Aparat rəhbəri və onun müavinləri;

16.1-1.2. Dövlət Vergi Xidməti Aparatının struktur bölmələrinin rəisləri və onların müavinləri;

16.1-1.3. Dövlət Vergi Xidmətinin strukturuna daxil olan qurumların rəisləri və onların müavinləri.";

3.2. 21-ci hissə ləğv edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417; 2021, № 5, maddə 445, № 6 (I kitab), maddə 566, № 10, maddə 1114, № 12, maddə 1406; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1694 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.1.4-cü yarımbənddə "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin;

4.2. 4.1.11-ci yarımbənd ləğv edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 719 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1011) ilə təsdiq edilmiş "Şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsinin həmin şəhər və rayonların sərəncamında saxlanılması və istifadəsi Qaydası"nın 1.3-cü və 2.3-cü bəndlərində "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 734 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1026) ilə təsdiq edilmiş "İdxal-ixrac əməliyyatları üzrə büdcə gəlirlərini təmin edən qurumların birgə nəzarətinin həyata keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.2-ci bənddə "Vergilər Nazirliyi (bundan sonra - Nazirlik)" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (bundan sonra - Xidmət)" sözləri ilə əvəz edilsin;

6.2. 1.3.2-ci yarımbənddə, 3-cü hissədə, 4.2-4.4-cü, 4.10-cu, 4.11-ci bəndin birinci cümləsində, 6.1-ci, 6.2-ci bəndin birinci və ikinci cümlələrində və 6.3-cü bəndlərdə ismin müvafiq hallarında "Nazirlik" sözü ismin müvafiq hallarında "Xidmət" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "2010-cu il sentyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Bolqarıstan Respublikasının Özəlləşdirmə və Özəlləşdirmədən sonra Nəzarət Agentliyi arasında əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə" 2010-cu il 27 dekabr tarixli 1255 nömrəli və "2010-cu il oktyabrın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə" 2010-cu il 27 dekabr tarixli 1257 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "2010-cu il sentyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Bolqarıstan Respublikasının Özəlləşdirmə və Özəlləşdirmədən sonra Nəzarət Agentliyi arasında əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 dekabr tarixli 1255 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1094) 2-ci hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

2. "2010-cu il oktyabrın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 dekabr tarixli 1257 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1096) 2-ci hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" 2016-cı il 22 iyun tarixli 940 nömrəli, "Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Türkmənistanın Maliyyə Nazirliyi arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandumun təsdiq edilməsi haqqında" 2017-ci il 29 noyabr tarixli 1699 nömrəli və "Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Litva Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyi arasında məlumat mübadiləsi sahəsində və vergi tələblərinin alınmasında qarşılıqlı inzibati yardım haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" 2017-ci il 19 dekabr tarixli 1747 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036; 2017, № 4, maddə 526, № 7, maddələr 1340, 1370, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 900, № 9, maddə 1825; 2019, № 1, maddə 58, № 4, maddə 618; 2020, № 5, maddə 541; 2021, № 5, maddə 435; 2022, № 2, maddə 102) 8-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə, ", Əmlak Məsələləri Dövlət Komitəsinə və Maliyyə Bazarlarına Nəzarət Palatasına tapşırılsın ki," sözləri "tapşırılsın və Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə olunsun ki," sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Türkmənistanın Maliyyə Nazirliyi arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandumun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1699 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2038) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Litva Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyi arasında məlumat mübadiləsi sahəsində və vergi tələblərinin alınmasında qarşılıqlı inzibati yardım haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1747 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2315) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "2007-ci il sentyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə" 2007-ci il 16 oktyabr tarixli 2440 nömrəli, "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" 2007-ci il 25 oktyabr tarixli 2458 nömrəli, "Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında beynəlxalq terrorçuluq, mütəşəkkil cinayətkarlıq və digər cinayətlərlə mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə" 2008-ci il 5 avqust tarixli 2964 nömrəli, "2009-cu il aprelin 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum"un təsdiq edilməsi barədə" 2009-cu il 24 iyun tarixli 341 nömrəli, "2009-cu il dekabrın 9-da Paris şəhərində imzalanmış "Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Fransa Respublikasının Dövlət Büdcəsi, Mühasibatı, Qulluğu və İslahatı Nazirliyinin Dövlət Maliyyəsi Baş İdarəsi arasında texniki əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında" 2010-cu il 10 fevral tarixli 730 nömrəli, "2011-ci il yanvarın 17-də Riqa şəhərində imzalanmış "Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Latviya Respublikasının Dövlət Gəlirləri Xidməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə qarşılıqlı inzibati yardım və məlumat mübadiləsi haqqında Saziş"in təsdiq edilməsi barədə" 2011-ci il 15 fevral tarixli 1331 nömrəli, "Azad iqtisadi zonalar yaradılması işinin sürətləndirilməsi haqqında" 2017-ci il 31 may tarixli 2940 nömrəli, "Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 20 aprel tarixli 6 nömrəli və "Bakı şəhəri Qaradağ rayonunun ərazisində yerləşən Heybət dəmir yolu stansiyasının ləğv edilməsi haqqında" 2018-ci il 6 iyun tarixli 183 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "2007-ci il sentyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 oktyabr tarixli 2440 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 977) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

2. "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 25 oktyabr tarixli 2458 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 995) 1-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında beynəlxalq terrorçuluq, mütəşəkkil cinayətkarlıq və digər cinayətlərlə mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 2964 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 732) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

4. "2009-cu il aprelin 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum"un təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 341 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 466) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

5. "2009-cu il dekabrın 9-da Paris şəhərində imzalanmış "Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Fransa Respublikasının Dövlət Büdcəsi, Mühasibatı, Qulluğu və İslahatı Nazirliyinin Dövlət Maliyyəsi Baş İdarəsi arasında texniki əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 730 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 111) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

6. "2011-ci il yanvarın 17-də Riqa şəhərində imzalanmış "Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Latviya Respublikasının Dövlət Gəlirləri Xidməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə qarşılıqlı inzibati yardım və məlumat mübadiləsi haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 1331 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 119) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

7. "Azad iqtisadi zonalar yaradılması işinin sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 may tarixli 2940 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 962; 2018, № 9, maddə 1866) 1-ci hissəsindən "Sahib Ələkbərov - Azərbaycan Respublikası vergilər nazirinin müavini" sözləri çıxarılsın.

8. "Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli 6 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 755) 1-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

9. "Bakı şəhəri Qaradağ rayonunun ərazisində yerləşən Heybət dəmir yolu stansiyasının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 183 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1266, № 8, maddə 1780) 6-cı hissəsində "Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə, "etsinlər" sözü "etsin" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2005-ci il 23 mart tarixli 213 nömrəli, "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2005-ci il 3 iyun tarixli 248 nömrəli, "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 7 iyun tarixli 252 nömrəli, "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi barədə" 2006-cı il 13 fevral tarixli 363 nömrəli, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2006-cı il 2 avqust tarixli 439 nömrəli, "Müsadirə edilmiş əmlakın bir hissəsinin hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2006-cı il 16 oktyabr tarixli 469 nömrəli, "Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2007-ci il 6 fevral tarixli 527 nömrəli, "Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2007-ci il 11 aprel tarixli 564 nömrəli və "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2007-ci il 22 may tarixli 576 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 23 mart tarixli 213 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 171; 2016, № 2 (II kitab), maddə 267; 2020, № 5, maddə 545) 1-1.3-cü bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485; 2006, № 11, maddə 948; 2008, № 11, maddə 969; 2009, № 4, maddə 226, № 10, maddə 785; 2010, № 2, maddə 80; 2012, № 12, maddə 1242; 2013, № 5, maddə 494, № 12, maddə 1538; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384; 2017, № 5, maddə 775, № 8, maddə 1521; 2018, № 9, maddə 1840; 2022, № 2, maddə 106; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1703 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. II hissənin 4-cü bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütunundan "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi (bundan sonra - Əmlak Məsələləri Dövlət Komitəsi)," sözləri çıxarılsın və həmin hissənin 6-cı bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.2. IV hissə üzrə:

2.2.1. 14-cü bəndin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütunundan ", Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra - Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi)" sözləri çıxarılsın;

2.2.2. 18-ci bəndin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda "Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.2.3. 25-ci bəndin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütunundan "Əmlak Məsələləri Dövlət Komitəsi," sözləri çıxarılsın;

2.3. V hissə üzrə:

2.3.1. 34-cü bəndin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda "Azərbaycan Respublikasının Vergilər Nazirliyi (bundan sonra - Vergilər Nazirliyi)" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.3.2. 35-ci bəndin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

3. "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 iyun tarixli 252 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 489; 2018, № 12 (I kitab), maddə 2536) 2.4-cü bəndində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 363 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 80, № 3, maddə 235; 2007, № 9, maddə 870; 2008, № 11, maddə 970; 2009, № 5, maddə 323; 2011, № 2, maddə 85; 2012, № 3, maddə 198; 2016, № 5, maddə 863, № 7, maddə 1263; 2017, № 5, maddə 828, № 12 (I kitab), maddə 2336; 2018, № 4, maddə 685; 2019, № 6, maddə 1048) ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin 14.2-ci bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin.

5. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 439 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 665; 2010, № 7, maddə 610) 2.1-ci bəndində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 oktyabr tarixli 469 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddə 848; 2008, № 1, maddə 9; 2009, № 5, maddə 319; 2010, № 2, maddə 80, № 7, maddə 610) ilə təsdiq edilmiş "Müsadirə edilmiş əmlakın bir hissəsinin hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilməsi Qaydaları"nın 4.5-ci bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin.

7. "Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 527 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 93; 2009, № 8, maddə 625, № 12, maddə 986; 2016, № 2 (II kitab), maddə 251) 2.3-cü bəndində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 326; 2008, № 6, maddə 495, № 11, maddələr 969, 980; 2013, № 6, maddə 656; 2014, № 10, maddə 1176; 2016, № 2 (II kitab), maddə 243, № 3, maddə 457, № 8, maddə 1376; 2017, № 8, maddə 1521; 2018, № 2, maddə 208, № 9, maddə 1840; 2020, № 9, maddə 1140; 2021, № 1, maddə 38; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1701 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə 2 - "Daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan əmlak növlərinin və onların qeydiyyatını aparan inzibati orqanların Siyahısı"nın 17-ci hissəsinin "Daşınar əmlakın rəsmi reyestrlərini aparan inzibati orqanların adları" sütununda "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

9. "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 576 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 458; 2010, № 7, maddə 610) 3-cü hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılsın ki," sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi barədə" 2014-cü il 15 may tarixli 168 nömrəli, "Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2014-cü il 22 dekabr tarixli 413 nömrəli, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 700 nömrəli, "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 3 fevral tarixli 759 nömrəli və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 20 aprel tarixli 866 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 168 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 481; 2017, № 8, maddə 1521; 2019, № 2, maddə 242, № 6, maddə 1027; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1704 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"nin 5.0.5-1-ci yarımbəndində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 22 dekabr tarixli 413 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1567; 2015, № 8, maddə 907) 12-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1132; 2016, № 8, maddə 1384, № 10, maddə 1633; 2017, № 4, maddə 565, № 11, maddə 1997; 2019, № 2, maddələr 247, 249, № 3, maddə 415, № 4, maddə 621, № 6, maddə 1032; 2020, № 3, maddə 243, № 6, maddə 706; 2021, № 5, maddə 450; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 7 aprel tarixli 1654 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 6-cı hissə ləğv edilsin;

3.2. 7.2-ci bənddən "barədə Azərbaycan Respublikasının Vergilər Nazirliyindən daxil olmuş məlumatlar" sözləri çıxarılsın.

4. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 dekabr tarixli 700 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1454; 2016, № 8, maddə 1383, № 11, maddə 1802, № 12, maddə 2090; 2021, № 4, maddə 323) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.3-cü bənddə "Vergilər" sözü "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat" sözləri ilə əvəz edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi Qaydaları"nın 3.3-cü bəndində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

5. "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 67, № 9, maddə 1462; 2017, № 1, maddə 65, № 7, maddə 1374; 2021, № 1, maddə 36, № 12, maddə 1404) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 4-cü hissədə "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" üzrə:

5.2.1. 8-ci hissədən "Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və" sözləri çıxarılsın;

5.2.2. 9-cu hissədən ", Azərbaycan Respublikasının Vergilər Nazirliyinə" sözləri çıxarılsın.

6. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, maddə 223; 2017, № 7, maddə 1343; 2018, № 1, maddə 44, № 7 (I kitab), maddə 1458, № 8, maddə 1705; 2019, № 8, maddə 1409) 2.2-ci bəndində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə və "Vergilər Nazirliyi" sözləri "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

7. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671, № 12, maddə 2064; 2017, № 4, maddə 532; 2019, № 11, maddə 1714; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1699 nömrəli Fərmanı) 2.6-cı bəndində birinci halda "Vergilər" sözü "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat" sözləri, ikinci halda "Vergilər Nazirliyi" sözləri "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 275 nömrəli, "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 276 nömrəli, "Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2010-cu il 24 noyabr tarixli 358 nömrəli, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2011-ci il 15 fevral tarixli 383 nömrəli, "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli və "Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2011-ci il 19 dekabr tarixli 546 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 275 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 490; 2014, № 11, maddə 1394) 2.3-cü bəndində "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 491; 2011, № 11, maddə 995; 2013, № 9, maddə 1048; 2014, № 9, maddə 1060, № 10, maddə 1177; 2015, № 2, maddə 117; 2016, № 5, maddə 867, № 11, maddə 1798; 2017, № 5, maddələr 777, 818; 2018, № 12 (I kitab), maddə 2586; 2019, № 6, maddə 1029; 2020, № 8, maddə 1024; 2021, № 2, maddə 130, № 6 (I kitab), maddə 567) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 11.8-ci bəndində "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 noyabr tarixli 358 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 974; 2011, № 6, maddə 506) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 6.1-ci bənd ləğv edilsin;

3.2. aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

"6-1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər rüb başa çatdıqdan sonra səhmlərinin (paylarının) 50 faizindən çoxu dövlətə məxsus olan hüquqi şəxslərin vergi hesablamalarını və ödəmələrini aidiyyəti qurumlarla birlikdə təhlil etsin, vergilərin dövlət büdcəsinə ödənilməsini təmin edən tədbirlər görsün və görülmüş işlər barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.";

3.3. 7-ci hissədən "İqtisadi İnkişaf Nazirliyinə, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə," sözləri çıxarılsın və həmin hissədə "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

4. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 87; 2015, № 8, maddə 910; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 377, № 10, maddə 1778; 2018, № 10, maddə 2001; 2019, № 5, maddə 857; 2020, № 6, maddə 707; 2021, № 5, maddə 450) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4-cü hissədə "Vergilər Nazirliyinə tapşırılsın ki," sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin 3.6-cı bəndindən "yarımbəndləri üzrə məlumatları Azərbaycan Respublikasının Vergilər Nazirliyi" sözləri çıxarılsın.

5. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793; 2014, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1194; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 384, № 5, maddə 761, № 7, maddələr 1322, 1335, № 8, maddə 1521; 2018, № 5, maddə 906, № 9, maddə 1844, № 12 (I kitab), maddə 2609; 2020, № 5, maddə 560; 2021, № 6 (I kitab), maddə 596; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1702 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 28.3-cü bənddən "Azərbaycan Respublikasının Vergilər Nazirliyi," sözləri çıxarılsın;

5.2. 28.12-ci bənddə ", Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Vergilər Nazirliyi" sözləri "və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi" sözləri ilə əvəz edilsin.

6. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 794; 2013, № 11, maddə 1340; 2014, № 12, maddə 1569; 2017, № 1, maddə 60, № 8, maddə 1521; 2018, № 9 , maddə 1840; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1707 nömrəli Fərmanı) 4.3-cü bəndində "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

7. "Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 19 dekabr tarixli 546 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1122; 2012, № 4, maddə 300, № 6, maddə 543; 2014, № 2, maddə 112, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 9-cu hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 7 fevral tarixli 192 nömrəli, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi və Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 dekabr tarixli 521 nömrəli Fərmanının qüvvədən düşmüş hesab edilməsi barədə" 2005-ci il 27 may tarixli 238 nömrəli, "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" 2005-ci il 31 may tarixli 242 nömrəli və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 9 avqust tarixli 277 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 57-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 yanvar tarixli 739 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 61, № 10, maddə 1612) 3-cü hissəsinin birinci abzasında "Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılsın ki," sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 mart tarixli 818 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 439) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissənin birinci abzasında və 6.5-ci bənddə ismin müvafiq hallarında "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.2. 3.1-ci bənddə "Əmlak Məsələləri Dövlət Komitəsinin (bundan sonra - Komitə)" sözləri "İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin;

2.3. 3.2-ci bənddə (hər iki halda), 4-cü və 5-ci hissələrdə ismin müvafiq hallarında "Komitə" sözü ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.4. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları"nın 1.2-ci bəndində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 663, № 11, maddə 1820; 2017, № 5, maddə 820, № 9, maddə 1656; 2018, № 2, maddə 183; 2019, № 3, maddə 411, № 5, maddə 817; 2020, № 5, maddə 545) 8.2-ci bəndində və 11-ci hissəsində ismin müvafiq hallarında "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

4. "Dövlət əmlakının özəlləşdirilməsi prosesinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 may tarixli 894 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 855, № 7, maddə 1273) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissədə "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin;

4.2. 2.2-ci bənddə və 3-cü hissənin birinci abzasında, 3.2-ci və 3.3-cü bəndlərdə ismin müvafiq hallarında "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

5. "Meliorasiya və su təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 23 fevral tarixli 372 nömrəli Fərmanında dəyişikliklər edilməsi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 952 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1048; 2018, № 2, maddə 184) 2.2-ci bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

6. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 296-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 iyul tarixli 980 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1251) 2-ci hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri 3 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Tikinti sahəsində qeyri-formal məşğulluğun qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında" 2017-ci il 28 aprel tarixli 1349 nömrəli, "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 18 may tarixli 1415 nömrəli, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 5 avqust tarixli 1569 nömrəli, "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli, "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 fevral tarixli 1816 nömrəli, "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət qurumlarına təqdim etdiyi hesabatların formaları və onların təqdim edilməsi Qaydası"nın və "Dövlət qurumlarının dövlət xəzinədarlığı məlumatlarına real vaxt rejimində çıxışının təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 15 may tarixli 72 nömrəli və "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" 2018-ci il 16 iyul tarixli 205 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Tikinti sahəsində qeyri-formal məşğulluğun qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 aprel tarixli 1349 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 563; 2019, № 6, maddə 1038) 2.4-cü bəndində, 4-cü və 6-cı hissələrində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

2. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 may tarixli 1415 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 819; 2019, № 3, maddə 408; 2021, № 12, maddə 1373) 2.2-ci bəndində "Qanunun" sözündən sonra "9-cu maddəsinin 3-cü, 11-ci maddəsinin 4-cü hissələrində və" sözləri əlavə edilsin və həmin bənddə "Vergilər" sözü "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat" sözləri ilə əvəz edilsin.

3. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1516; 2018, № 12 (I kitab), maddə 2579; 2019, № 6, maddə 1038, № 7, maddə 1217, № 12, maddə 1922; 2020, № 5, maddə 561, № 7, maddə 861, № 9, maddə 1143, № 11, maddə 1348; 2021, № 3, maddə 219) 2.12-ci bəndində "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və **"www.azexport.az"** internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1645; 2019, № 6, maddə 1031; 2021, № 1, maddə 44) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın 1.2.4-cü, 1.2.8-ci yarımbəndlərində və 2.10-cu bəndində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş **"www.azexport.az"** internet portalı haqqında Əsasnamə" üzrə:

4.2.1. 1.3.9-cu yarımbənddə "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin;

4.2.2. 4.2.2-ci yarımbəndə aşağıdakı məzmunda 4-cü və 5-ci abzaslar əlavə edilsin:

"4. fiziki və hüquqi şəxslərin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) barədə məlumatlar;

5. "ASAN imza" sertifikatının verilməsi;";

4.2.3. 4.2.9-cu yarımbənd ləğv edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2020; 2018, № 5, maddə 896; 2020, № 4, maddə 405, № 9, maddə 1152, № 12 (I kitab), maddə 1460) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-17-ci yarımbəndində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

6. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1816 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 180; 2019, № 6, maddə 1033; 2020, № 11, maddə 1348) 2.6-cı bəndində "Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə bu orqana bilavasitə tabe olan vergi orqanları" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə və "Vergilər Nazirliyi" sözləri "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 may tarixli 72 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 940, № 12 (I kitab), maddə 2556; 2019, № 5, maddə 834) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət qurumlarına təqdim etdiyi hesabatların formaları və onların təqdim edilməsi Qaydası"na 1 nömrəli əlavə - "Dövlət büdcəsinin gəlirlərinin icrası barədə məlumat (gəlir inzibatçıları üzrə əvvəlki dövrlə müqayisə)"ın "Büdcə daxilolmalarını təmin edən orqanlar" sütununun 1-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz olunsun və 3-cü hissəsi ləğv edilsin.

8. "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 205 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7, maddə 1491; 2021, № 5, maddə 456) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 6-cı hissədə "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin;

8.2. 8.2-ci və 8.3-cü bəndlər ləğv edilsin;

8.3. aşağıdakı məzmunda 8-1-ci hissə əlavə edilsin:

"8-1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

8-1.1. yerin təkindən istifadə sahəsində fəaliyyət göstərən fiziki və hüquqi şəxslər tərəfindən vergi qanunvericiliyinin pozulması hallarının qarşısının alınmasını təmin etsin;

8-1.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə Mineral Xammal Bazasının Bərpası üzrə Dövlət Fonduna ayırmaların həyata keçirilməsinə nəzarəti gücləndirsin.";

8.4. 9.1-ci bənddə "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

8.5. 10-cu hissədə "Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 14 fevral tarixli 906-IVQD nömrəli Qanununun tətbiqi və "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 696 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 6 mart tarixli 120 nömrəli, "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 2014-cü il 16 aprel tarixli 152 nömrəli, "Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilməsi haqqında" 2015-ci il 5 fevral tarixli 453 nömrəli və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1198-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2015-ci il 18 mart tarixli 487 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 14 fevral tarixli 906-IVQD nömrəli Qanununun tətbiqi və "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 696 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 6 mart tarixli 120 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 241; 2016, № 2 (II kitab), maddə 250) 4-cü hissəsi ləğv edilsin.

2. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 368; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384; 2021, № 1, maddə 30) 3-cü hissəsindən "və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 5 fevral tarixli 453 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 115) 2.1-ci bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

4. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1198-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 487 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 267) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2016-cı il 23 dekabr tarixli 1171 nömrəli, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 23 dekabr tarixli 1175 nömrəli və "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 dekabr tarixli 1171 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2089; 2018, № 1, maddə 56) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bənd ləğv olunsun və aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi vergi ödəyicilərinin əldə etdikləri gəlirlərin və xərclərin uçotunun, eləcə də nağdsız əməliyyatların aparılmasına, e-ticarətin vergiyə cəlb edilməsinə və səyyar vergi yoxlamaları zamanı vergi üstünlüyü əldə etmək məqsədilə qanunvericiliyin tələblərindən sui-istifadə etməklə aparılan əməliyyatlara ciddi nəzarət olunması istiqamətində bütün zəruri tədbirlərin görülməsini təmin etsin.";

1.2. 3.2-ci bənddə və 6-cı hissədə "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

2. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 dekabr tarixli 1175 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2093; 2019, № 2, maddə 213) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 52; 2019, № 11, maddə 1715 ) ilə təsdiq edilmiş "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin 6.3-cü bəndində birinci halda "Vergilər Nazirliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri ilə və ikinci halda "Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 826-IVQD nömrəli Qanununun tətbiqi və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2013-cü il 10 dekabr tarixli 43 nömrəli və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 880-IVQD nömrəli Qanununun tətbiqi və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 3 fevral tarixli 101 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 826-IVQD nömrəli Qanununun tətbiqi və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli 43 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1510) 3-cü hissəsi ləğv edilsin.

2. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 880-IVQD nömrəli Qanununun tətbiqi və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 fevral tarixli 101 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 108; 2016, № 2 (II kitab), maddə 250) 7-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa və "Atçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 21 dekabr tarixli 192 nömrəli, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 470-VQD nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 25 yanvar tarixli 1211 nömrəli, "İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın və "Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 19 aprel tarixli 1341 nömrəli və "Topdansatış ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın və "İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 16 iyun tarixli 1460 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa və "Atçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 21 dekabr tarixli 192 nömrəli (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 980) Fərmanının 2-ci hissəsi ləğv edilsin.

2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 470-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 yanvar tarixli 1211 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 58) 3-cü hissəsi ləğv edilsin.

3. "İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın və "Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1341 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 555; 2019, № 12, maddə 1945) 4-cü hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

4. "Topdansatış ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın və "İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 1460 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1076; 2019, № 12, maddə 1945) 4-cü və 5-ci hissələrində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2016-cı il 20 aprel tarixli 877 nömrəli, "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2016-cı il 12 iyul tarixli 985 nömrəli və "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 447-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 14 dekabr tarixli 1158 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 877 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 682; 2019, № 2, maddə 241) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın 2.3-cü və 3.3-cü bəndlərindən "Azərbaycan Respublikasının Vergilər Nazirliyinə," sözləri çıxarılsın.

2. "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1256; 2017, № 1, maddə 48, № 6, maddə 1073, № 10, maddə 1787; 2019, № 12, maddə 1945; 2020, № 11, maddə 1357; 2021, № 1, maddə 43) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.4-cü bənd ləğv olunsun və aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4-1.1. bu Fərmanın 4.3-cü bəndində nəzərdə tutulmuş vahid elektron məlumat bazasında toplanan məlumatların təhlükəsizliyini və məlumat mübadiləsinin fasiləsizliyini təmin etsin;

4-1.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.";

2.2. 5-ci hissədə "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.3. 6.1-ci bənddə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin;

2.4. 8-ci hissədə "Vergilər Nazirliyinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin;

2.5. həmin Fərmanla təsdiq edilmiş "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası" üzrə:

2.5.1. 3.3-cü, 3.7-ci və 4.1-ci bəndlərdə "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.5.2. 3.11-ci, 5.2-ci, 6.9-cu, 6.10-cu və 6.11-ci bəndlərdə ismin müvafiq hallarında "Vergilər Nazirliyi" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

3. "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 447-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 dekabr tarixli 1158 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2076; 2018, № 7, maddə 1463) 3.2-ci bəndində "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında" 2015-ci il 23 dekabr tarixli 1645 nömrəli, "Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 17 mart tarixli 2760 nömrəli, "İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 28 iyun tarixli 260 nömrəli, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 noyabr tarixli 711 nömrəli sərəncamlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Vergilər Nazirliyi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" 2001-ci il 29 mart tarixli 665 nömrəli Sərəncamının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 dekabr tarixli 1645 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1532; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2021, № 6 (I kitab), maddə 607; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 3288 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"nın "9.5. Monitorinq və qiymətləndirmə sisteminin yaradılması" bəndinin 9.5.2-ci yarımbəndinin "İcraçılar" sütunundan "Vergilər Nazirliyi," sözləri çıxarılsın.

2. "Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2760 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 448, № 4, maddə 604; 2018, № 2, maddə 245) 1-ci hissəsindən "Azərbaycan Respublikasının vergilər naziri" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 iyun tarixli 260 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1342) ilə təsdiq edilmiş "İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı"nın 3.2-ci bəndinin "İcraçılar" sütununda "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2367; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 3291 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın "6. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 6.1.9-cu yarımbəndinin "İcraçı orqanlar" sütununda "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikası Vergilər Nazirliyi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 665 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 195; 2005, № 11, maddə 1049; 2009, № 9, maddə 713; 2013, № 7, maddə 822; 2015, № 2, maddə 146; 2016, № 4, maddə 711, № 10, maddə 1653; 2017, № 2, maddə 213; 2018, № 11, maddə 2362) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 avqust 2022-ci il*

# "Jurnalist" qərəzi və vətəndaş məsuliyyətsizliyi

## Respublika Prokurorluğunun həyata keçirdiyi tədbirlər planı qanunun aliliyinin müdafiəsinə xidmət edir

**Söz və fikir azadlığının bərqərar olduğu, hər bir vətəndaşın istənilən mətbuat orqanına maneəsiz çıxışının təmin edildiyi Azərbaycanda özünüifadə azadlığının təmini istiqamətində geniş imkanlar yaradılıb.**



Hazırda ölkəmizdə çap və internet mediası sərbəst fəaliyyət göstərir. Bununla yanaşı, sosial medianın da kifayət qədər auditoriyaya müraciət etmək imkanları mövcuddur. Bu da onu təsdiqləyir ki, ölkədə internetdən, sosial şəbəkələrdən geniş istifadə etmək üçün heç bir məhdudiyyət yoxdur və bunun üçün lazımi şərait yaradılıb. İnsanlar sosial şəbəkələrdə öz fikir və rəylərini rahat, sərbəst şəkildə ifadə edə bilirlər.

Amma son zamanlarda həm elektron, həm də sosial mediada yayılan uydurma, yalan informasiyalar təəssüf doğurmaya bilməz. Çünki özünü jurnalist adlandıran bəzilərinin "fəaliyyəti" yalan xəbər başlıqları ilə başlayıb, hətta dövlət sirri sayılan informasiyanın yayılması həddinə qədər şaxələnir. Bəzi sosial şəbəkə istifadəçiləri isə izləyici sayını çoxaltmaqdan ötrü həm Azərbaycan Ordusunun nüfuzuna xələl gətirən, həm də vətəndaşlar arasında süni ajiotaj yaradan, eləcə də dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində görülən işlərə kölgə salan, həqiqətə uyğun olmayan informasiyalar yaymaqda davam edirlər.

Əlbəttə ki, bu cür hallar ölkə ictimaiyyəti tərəfindən haqlı narazılığa səbəb olur. Çünki həmin şəxslər bu cür hərəkətləri ilə həm təşviş yaradır, həm də bilərəkdən və ya bilməyərəkdən düşmən dəyirmanına su tökürlər. Bəlkə də bunu məqsədli şəkildə həyata keçirirlər. Antiazərbaycançı şəbəkələrin də bu işdə "fəaliyyəti" ola bilər.

Ona görə də Baş Prokurorluq qanunun tələblərinə uyğun olaraq ilk növbədə media subyektlərinə və sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edib. Prokurorluğun bununla bağlı yaydığı məlumatda bildirilirdi ki, aparılan monitorinqlərlə bəzi media orqanlarında informasiyanın dərc olunması zamanı qanunvericiliyin tələblərinin, yəni faktların və hadisələrin qərəzsiz, obyektiv təqdim olunması, birtərəfliliyə yol verilməməsi haqqında tələblərə riayət olunmaması müəyyənləşib. Ölkədə ictimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının pozulmasına yönələn halların qarşısının alınması üçün aidiyyəti şəxslər Baş Prokurorluğa dəvət olunmaqla barələrində prokuror təsir tədbirləri görülüb. Onlara "Prokurorluq haqqında" qanunun 22-ci maddəsinə əsasən, gələcəkdə bu kimi neqativ hallara yol verməmələri ilə bağlı xəbərdarlıq olunub.

Baş Prokurorluq media subyektlərinə və sosial şəbəkə istifadəçilərinə müraciət edərək bir daha bəyan edib ki, dövlət qurumları ilə hər hansı dəqiqləşdirmə aparmadan yoxlanılmamış məlumatların yayılması yolverilməz olmaqla qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Təbii ki, bir sıra sosial şəbəkə istifadəçilərinin Baş Prokurorluğa dəvət olunaraq onlara xəbərdarlıq edilməsi ölkə ictimaiyyəti tərəfindən haqlı olaraq düzgün addım kimi dəyərləndirilir və hesab edilir ki, bu cür addımlar və tədbirlər davamlı xarakter almalıdır. Çünki bu məsələdə bir sıra nüanslar var. Onlardan biri Vətən müharibəsindən sonra bölgədəki hazırkı durumdur. Bəllidir ki, Vətən müharibəsindən sonra Rusiya sülhməramlılarının nəzarəti altında olan Azərbaycan torpaqlarından hələ də erməni separatçıları tamamilə çıxarılmayıb. Eyni zamanda Qarabağda, Şərqi Zəngəzurda ordumuzun müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində yeni hərbi hissələr yaradılır, qoşunların dislokasiya prosesi həyata keçirilir.

Bu məlumatları Müdafiə Nazirliyinə istinad etmədən, yəni rəsmi mənbədən almadan yaymaq nə dərəcədə doğrudur?!

Baş prokuror Kamran Əliyev bu məsələyə toxunarkən qeyd etmişdir ki, bəzi jurnalistlər və sosial media istifadəçiləri işin detallarını, incəliklərini bilmədən qəti fikirlər irəli sürürlər, özlərini tam hazırlıqlı hüquqşünas hesab edirlər.

Ona görə də belə hallarda mütləq qanunun aliliyi əsas götürülməlidir. Baş Prokurorluq tərəfindən "Prokurorluq haqqında" qanunun 22-ci maddəsinə əsasən, gələcəkdə bu kimi mənfi hallara yol verilməməsi ilə bağlı xəbərdarlıq edilməsi düzgün addımdır. Təbii ki, bu, təkcə "reket jurnalistika" ilə məşğul olanlara yox, əsassız məlumatlar yayan sosial şəbəkə istifadəçilərinə də ilkin xəbərdarlıqdır.

Ümumiyyətlə, Azərbaycanın informasiya məkanına mənfi təsir göstərən bütün hallara qarşı mübarizə aparmaq vacibdirr. Bu prosesdə iştirak edən bütün subyektlər həm hüquqi məsuliyyətə cəlb edilməli, həm də ictimai qınağa məruz qalmalıdırlar. Əgər belə hallara imkan verilsə, ilk növbədə şərəfli tarixi olan milli mətbuatımızın nailiyyətləri gözdən düşə bilər və ölkədə təxribat, çaşqınlıq yaratmağa çalışan qüvvələr məkrli məqsədlərinə çata bilərlər.

Baş Prokurorluğun həmin şəxslərə müraciəti, görülən tədbirlər qanunun aliliyinin müdafiəsi kimi qiymətləndirilməlidir.

Prezident İlham Əliyev hər zaman qeyd edir ki, qanun hər şeydən üstündür. Heç kim qanundankənar hərəkət edə bilməz.

Ona görə də belə şəxslərin hərəkətlərinin qarşısını alan, dövlət qurumlarına, dövlətin imicinə, müdafiə qabiliyyətinə, insanların hüquq və azadlıqlarının pozulması hallarına, ölkədə süni ajiotaj yaradılmasına qarşı yönələn hərəkətlərə qarşı Baş Prokurorluq tərəfindən "Prokurorluq haqqında" qanunun tələblərinə uyğun olaraq görülən tədbirlər təqdirəlayiqdir.

İnanırıq ki, Baş Prokurorluğun bu istiqamətdə gördüyü işlər müsbət nəticələr verəcək. Gələcəkdə də bu cür qanunsuz hərəkətlərə və qanunvericiliklə qadağan olunmuş fəaliyyətlərə görə müəyyən inzibati tədbirlərin görülməsi bunu deməyə əsas verir. Əgər bu məsələdə ölkənin qeyri-hökumət təşkilatları, aparıcı çap və elektron mediası Baş Prokurorluğun həyata keçirdiyi proseslərə yardımçı olarlarsa, mübarizə daha effektiv nəticə verə bilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Avqustun 3-də Baş prokuror Kamran Əliyev Ucar Rayon Prokurorluğunun inzibati binasında Ucar, Kürdəmir, Göyçay və Zərdab rayonları, həmçinin digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 83 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror Kürdəmir, Göyçay və Zərdab rayon prokurorluqlarına gedib, əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

# Raket və Artilleriya Qoşunlarında yeni tədris dövrünün məşğələləri başlayıb

Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq, Raket və Artilleriya Qoşunlarının bölmələri ilə yeni tədris dövrünün məşğələləri keçirilir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana uyğun olaraq "Həyəcan" siqnalı ilə qaldırılan bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq atəş mövqelərini tutublar.

Məşğələlərdə əsas məqsəd komandir heyətinin çevik qərar qəbuletmə bacarıqlarının təkmilləşdirilməsi, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqədə atəşi idarəetmə suallarının məşq etdirilməsi və hərbi qulluqçuların praktiki vərdişlərinin inkişaf etdirilməsidir.

# Şəhid ailələri və qazilərə dövlət qayğısının təcəssümü

## Hərbiyönümlü qeyri-hökumət təşkilatları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar

**Azərbaycanda fəaliyyət göstərən hərbiyönümlü qeyri-hökumət təşkilatları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar. AZƏRTAC müraciəti təqdim edir:**

- Hörmətli cənab Prezident!

Müzəffər Ali Baş Komandan!

Sizin şəhid ailələrinə, müharibə əlillərinə və iştirakçılarına xüsusi diqqət və qayğınız nəticəsində bu kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsi, rifah halının yaxşılaşdırılması istiqamətində ardıcıl olaraq mühüm addımlar atılır.

Müzəffər Ali Baş Komandan kimi Sizin rəhbərliyinizlə Azərbaycan Ordusunun möhtəşəm tarixi Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra da şəhid ailələri, müharibə əlilləri və iştirakçıları genişmiqyaslı sosial dəstək proqramları ilə əhatə olunublar.

Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı 5 dəfə genişlənməklə, postmüharibə dövründə şəhid ailələri və müharibə əlillərinə 3600, ümumiyyətlə, ötən dövrdə 12 min 500-dən çox mənzil və fərdi evin, 7450 nəfər müharibə əlilinə minik avtomobilinin verilməsi, ümumilikdə 330 müharibə əlilinin yüksək texnologiyalı son nəsil protezlərlə təmin olunması və digər tədbirlər onlara göstərilən qayğının bir nümunəsidir.

Həmçinin Vətən müharibəsi zamanı sağlamlığını itirən hər bir əsgər və zabitimizin müalicəsi, onların reabilitasiyası, cəmiyyətə yenidən inteqrasiyası üçün aparılan mühüm və ardıcıl işlər Sizin müharibə iştirakçılarına qayğıkeş, həssas münasibətinizdən irəli gəlir.

Eyni zamanda şəhid ailələri və müharibə əlillərinə yönələn sosial ödənişlərin artırılması üçün ötən dövrdə mühüm addımlar atılıb, xüsusilə son illərdə bu istiqamətdə ciddi artımlar tətbiq edilib. Müharibə veteranlarının Prezidentin aylıq təqaüdləri ilə əhatə edilmələri təmin olunmaqla, onlarla və şəhid ailələri ilə bağlı fəal məşğulluq proqramları da genişlənib.

Sizin şəhid ailələrinə xüsusi qayğınız nəticəsində hələ 2019-2020-ci illərdə mühüm sosial proqram - 1997-ci il avqustun 2-dək olan dövrdə şəhid olmuş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələri birdəfəlik ödəmə ilə təmin edilməsi proqramı icra edildi və bu da şəhid ailələrinə daha bir dəstək oldu.

Bu gün isə Sizin fərmanınızla növbəti mühüm sosial dəstək proqramına - Birinci Qarabağ müharibəsində iştirak etmiş və sağlamlığını itirmiş, 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçular və daxili işlər orqanları əməkdaşlarına, onlardan vəfat edənlərin vərəsələrinə birdəfəlik ödəmələrin verilməsinə başlandı.

Həmin kateqoriyalardan olanlara, onlardan vəfat edənlərin vərəsələrinə birdəfəlik ödəmələr edilir: I dərəcə əlilliyə görə - 8 800 manat, II dərəcə əlilliyə görə - 6 600 manat, III dərəcə əlilliyə görə - 4 400 manat. Həmin qərar müharibə əlili olan minlərlə vətəndaşımıza, onların ailələrinə böyük dəstəkdir.

Bu qərar həm də onu göstərir ki, istər Birinci Qarabağ müharibəsi, istərsə də 44 günlük Vətən müharibəsində iştirak etmiş hər bir Azərbaycan vətəndaşı Azərbaycan Respublikasının Prezidenti üçün dəyərlidir, onların Vətən üçün etdikləri fədakarlıqlar unudulmur.

Möhtərəm Ali Baş Komandan!

Şəhid ailələrinə, qazilərə, müharibə əlillərinə göstərdiyiniz bu həssas, qayğıkeş münasibətinizə görə hərbiyönümlü qeyri-hökumət təşkilatları adından Sizə təşəkkür edir, Azərbaycanın inkişafı və tərəqqisi üçün apardığınız mübarizədə uğurlar arzulayırıq. Bildiririk ki, biz Sizin siyasətinizi daim dəstəkləyir və hər zaman Sizin yanınızdayıq.

*Hörmətlə,*

***Asəf ƏLİYEV,***
*"Qarabağ Qaziləri" İctimai Birliyinin sədri,*
***Rey KƏRİMOĞLU,***
*Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası İctimai Birliyinin sədri,*
***Mehdi MEHDİYEV,***
*Azərbaycan Qarabağ Müharibəsi Əlilləri Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri,*
***Füzuli RZAQULİYEV,***
*"Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin sədri,*
***Emin HƏSƏNLİ,***
*"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri.*

## Heç kəs unudulmur, heç nə yaddan çıxmır

### Dövlət növbəti dəfə vətən müdafiəçilərinin yanında olduğunu sübut etdi

**Danılmaz həqiqətdir ki, bu gün də Azərbaycan vətəndaşının sosial güvənliyinin təminatı dövlətin əsas diqqətində olan məsələdir. Bu istiqamətdə mütəmadi olaraq vətəndaşların xeyrinə qanunvericilikdə dəyişikliklər edilir və qərarlar qəbul olunur. Prezident İlham Əliyev də dəfələrlə bəyan etmişdir ki, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır.**



Xüsusilə Vətənin müdafiəsində şəhid olan insanların ailələri və müharibə əlilləri dövlətin hərtərəfli qayğıkeşliyi ilə əhatə olunublar. 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələrinin və müharibə əlillərinin sosial-məişət problemlərinin həlli məqsədilə qanunvericilikdə yeniliklər edilməsi bunun bariz nümunəsidir.

Xəbər verildiyi kimi, 2022-ci il avqustun 2-də müharibə əlillərinə və şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə yeni sənəd imzalanmışdır. Nazirlər Kabinetinin həmin qərarına əsasən, əlilliyi müəyyən edilmiş bir sıra hərbi qulluqçulara, daxili işlər orqanları əməkdaşlarına və ya vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə başlanılmışdır. Qaydada bildirilir ki, 1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, kontuziya) alması, həmçinin xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına, onların vərəsələrinə birdəfəlik ödəmə verilir. Bu qayda həmin kateqoriyadan olan vətəndaşların ödəmələrini almasını tənzimləyir.

Qərarın qəbulu sosial ədalətin bərpası baxımından da önəmlidir. Bu fakt onu göstərir ki, dövlət bütün vətəndaşların qayğısına həssaslıqla yanaşır. Birdəfəlik ödəmə məbləği Prezidentin 23 dekabr 2021-ci il tarixli fərmanına uyğun olaraq ödənilir. Həmin fərmanda qeyd edilir ki, dövlət tərəfindən I dərəcəli əlilliyə görə 8800, II dərəcə əlilliyə görə 6600, III dərəcə əlilliyə görə 4400 manat birdəfəlik ödəmə verilir. Yeni qərarla təsdiq olunmuş qaydada diqqəti xüsusi cəlb edən hallardan biri də xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş, lakin sonradan reabilitasiya olunmuş şəxslər də bu imkandan istifadə edə biləcəklər. Bununla yanaşı, müəyyən edilmiş məbləğdən az sığorta ödənişi almış şəxslər qanunun verdiyi imkandan yararlanacaqdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik ödəmə alacaq vətəndaşların bürokratik əngəllərlə qarşılaşmaması üçün tədbirlər görür. Belə ki, həmin dövrədək hərbi xidmətdə xəsarət alması barədə məlumatları aidiyyəti qurumlar tərəfindən müvafiq elektron sistemə daxil edilmiş, o cümlədən sığorta ödənişi alması üçün məhkəmə qətnaməsi olan 11 minədək şəxsə e-sistem üzərindən proaktiv qaydada (heç bir quruma müraciət etmədən) ödəmə təyin olunaraq onların bank hesablarına köçürülür, həmçinin onlara ödəmənin hansı bankdan alacağı barədə SMS-lə göndərilir. Bu mövzuda suallar yarandığı halda vətəndaşlar 142 Çağrı mərkəzinə, nazirliyin DOST Agentliyinə və DSMF-nin rəsmi saytına müraciət edə bilərlər.

Ümumiyyətlə, 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən sonra şəhid ailələrinə və müharibə əlillərinə göstərilən qayğıkeşlik və verilən maddi dəstək Azərbaycan dövlətinin sosial siyasətinin göstəricisidir. Prezident İlham Əliyev bu barədə demişdir: "Müharibədən sonra bir çox şəhid ailələrinə və müharibə əlillərinə dövlət tərəfindən mənzillər verildi və hesab edirəm ki, bu il Bakı şəhərində bu məsələ artıq tam həll olunacaq. Keçən il 3 min mənzil və fərdi ev verilmişdir, bu il 1500 mənzil və ev verilir. Bütövlükdə Birinci və İkinci Qarabağ müharibələrinin şəhid ailələrinə və müharibə əlillərinə 12 min 500 mənzil verilib. Ermənistanda nə qədər verilib? Sıfır! Bir koma da verilməyib, bir daxma da verilməyib. Yəni, əlbəttə, biz Ermənistanla özümüzü heç cür müqayisə etmək istəmirik. Amma bu reallıqdır. İndi dünyada o qədər müharibələr olub - bizim bölgəmizdə, bizim coğrafiyaya yaxın olan yerlərdə, başqa yerlərdə. Hansı ölkə bunu edir? Mənə desinlər, mən eşitməmişəm. Ona görə etmirik ki, bununla öyünək, ona görə edirik ki, bunu mənəvi borc bilirik, edirik və edəcəyik. Bütün şəhid ailələri, hansılar ki, hələ növbədədir, yaxın gələcəkdə evlərlə təmin ediləcək".

Sitata əlavə edək ki, cari ildə bu kateqoriyadan olan 600 şəxsə mənzil təqdim olunub. Planda isə 1500 mənzilin verilməsi nəzərdə tutulub. Yaxın aylarda daha 500 mənzil və fərdi evin verilməsi proqnozlaşdırılıb. Bununla cari ildə dövlət başçısının tapşırığına uyğun olaraq Bakı, Sumqayıt və Abşeron ərazisində yaşayan şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı yekunlaşacaq.

Paralel olaraq postmüharibə dövründə sözügedən kateqoriyadan olan 100 min insana 193 min xidmət göstərilib. Həmin xidmətlərin əsas istiqaməti müxtəlif sosial ödənişlərin verilməsidir. Yeri gəlmişkən, qeyd edək ki, ötən il sosial müavinətin məbləği 60, cari ildə isə təqaüdlər 60 faiz artırılıb.

Müharibə əlillərinin normal həyata qayıdışı da diqqət mərkəzindədir. Bu məqsədlə 11 min müharibə əlili və müharibə veteranı sosial-psixoloji dəstək və reabilitasiya proqramlarına cəlb olunub. Onlara bu dövrdə 21 min reabilitasiya vasitəsi təqdim edilib. Ümumiyyətlə, indiyədək 200 nəfərdən çox Vətən müharibəsi əlili ən yüksək texnologiyalı dördüncü nəsil müasir protezlərlə təchiz olunub. Bundan əvvəl isə həmin kateqoriyadan olan 130 nəfər belə protezlərlə təmin edilmişdir.

Şəhid ailələrinin və qazilərin məşğulluq problemi də həll olunur. İndiyəcən həmin kateqoriyadan olan 8 min nəfərdən çox şəxs özünüməşğulluq proqramına cəlb edilib. Həmin şəxslər kiçik ailə təsərrüfatları quraraq özlərinə gəlir mənbəyi qazanıblar. Bununla yanaşı, 4500 müharibə əlili və veteranı münasib işlə təmin olunub.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Birdəfəlik ödəmə proqramına dair hərbiyönümlü qeyri-hökumət təşkilatları ilə görüş olub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Birinci Qarabağ müharibəsi əlillərinin birdəfəlik ödəmə ilə təminatı proqramına başlanılmasına dair hərbiyönümlü qeyri-hökumət təşkilatları ilə görüş olub.

Görüşdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bu yeni sosial dəstək proqramının Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısının növbəti təzahürü olduğunu vurğulayıb, proqramın icra mexanizmi barədə məlumat verib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, o bildirib ki, 1997-ci il avqustun 2-dək olan xidmət dövründə aldığı xəsarət, habelə hərbi xidmət vəzifələrini yerinə yetirərkən xəsarət və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərlə yanaşı, proqram həmin şəxslərdən vəfat edənlərin vərəsələrini də əhatə edir. Həmçinin xidmətlə əlaqədar əlilliyi olmuş, lakin sonradan reabilitasiya olunmuş şəxslərin, eləcə də əvvəllər hazırkı məbləğdən az sığorta ödənişi almış şəxslərin də ödənişlə təmin olunması nəzərdə tutulub. Bu da proqramın humanist prinsiplərə əsaslandığını və əhatə dairəsinin daha geniş olduğunu göstərir.

A.Kərimov artıq 11 minədək şəxsə e-sistem üzərindən proaktiv qaydada birdəfəlik ödəmə təyin olunduğunu, ödənişlərin həmin şəxslərin bank hesablarına köçürüldüyünü, onlara bu barədə məlumat göndərildiyini qeyd edib.

Görüşdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın sədri Elşad Məmmədov, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin sədri Mehdi Mehdiyev, "Qarabağ Qaziləri" İctimai Birliyinin sədri Asəf Əliyev və "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin sədri Füzuli Rzaquliyev dövlət başçısının şəhid ailələrinə, müharibə əlillərinə və iştirakçılarına diqqət və qayğısından bəhs ediblər.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm tarixi Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra da şəhid ailələri, müharibə əlilləri və iştirakçıları ilə bağlı icra olunan genişmiqyaslı sosial dəstək proqramı vurğulanıb. Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramının 5 dəfə genişləndiyi, ötən dövrdə 12500-dən çox mənzil və fərdi ev, 7450 nəfər müharibə əlilinə minik avtomobili təqdim olunduğu qeyd olunub. Təkcə son 4 ildə şəhid ailələri və müharibə əlillərinə yönələn ödənişlərdə orta hesabla 2,5 dəfə artım baş verdiyi bildirilib. Şəhid ailələrinin və müharibə iştirakçılarının aktiv məşğulluq proqramları və reabilitasiya xidmətləri ilə əhatə olunduqları diqqətə çatdırılıb.

Bildirilib ki, hələ 2019-2020-ci illərdə mühüm sosial proqram - 1997-ci il avqustun 2-dək olan dövrdə şəhid olmuş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələri birdəfəlik ödəmə ilə təmin edilib. Hazırda isə Birinci Qarabağ müharibəsi əlilləri ilə bağlı birdəfəlik ödəmə proqramı icra edilir. Bu da müharibə əlillərinin sosial müdafiəsinin daim dövlət başçısının diqqət mərkəzində olduğunu, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlıqlarını itirən qəhrəmanlarımızın dövlətin qayğısı ilə əhatə edildiyini bir daha təsdiqləyir.

Qeyri-hökumət təşkilatlarının rəhbərləri şəhid ailələrinə, müharibə əlillərinə və iştirakçılarına göstərilən həssas, qayğıkeş münasibətə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Görüşdə Birinci Qarabağ müharibəsi əlillərinin birdəfəlik ödəmə ilə təminatı proqramının icra mexanizminə dair fikir mübadiləsi aparılıb.

## Birinci Qarabağ müharibəsi qazilərinə növbəti dəstək proqramı həyata keçirilir

Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin ailə üzvlərinə, həmçinin müharibə əlillərinə dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərilir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu istiqamətdə gördükləri işlər əvəzsizdir.

Birinci Qarabağ müharibəsi qazi və əlillərinin güzəranları da daim diqqət mərkəzində saxlanılır. Prezidentin fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə başlanması da bu prosesin tərkib hissəsidir.

Zəfər qazandığımız Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı geniş tədbirləri əhatə edən sosial dəstək paketi çərçivəsində artıq 100 mindən çox insanı əhatə edən 193 min dəstək xidməti göstərilib. Bu paket çərçivəsində Vətən müharibəsi şəhidlərinin ailə üzvlərindən və müharibə iştirakçılarından ibarət 93 min şəxsə e-sistem üzərindən proaktiv qaydada 104 min sosial ödəniş təyin olunub. Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı 5 dəfə genişləndirilib.

### 11 min Birinci Qarabağ müharibəsi əlilinə 67 milyon birdəfəlik ödəmə

Prezidentin müvafiq fərmanı ilə növbəti sosial dəstək proqramı isə Birinci Qarabağ müharibəsində iştirak etmiş və sağlamlığını itirmiş, ümumilikdə 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara və daxili işlər orqanları əməkdaşlarına, onlardan vəfat edənlərin vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi oldu. İlkin olaraq 11 min Birinci Qarabağ müharibəsi əlilinə təyin edilən birdəfəlik ödəməyə görə 67 milyon manat vəsait ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev açıqlamasında bildirib ki, Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmənin verilməsi mexanizmi humanist yanaşma, ödənişlə təminat proqramının əhatə dairəsinin daha geniş olması prinsipləri əsasında hazırlanıb. O, qeyd edib ki, birdəfəlik ödəmə təkcə hazırda müharibə əlili statusunda olanlara deyil, həm də vaxtilə Birinci Qarabağ müharibəsi zamanı əlil olmuş, lakin sonradan sağalmış, əlillik dərəcəsi hazırda olmayan şəxslərə də verilir.

Həmçinin nazir birdəfəlik ödəmə ilə təminat proqramının icrası üçün ötən dövrdə elektron sistem yaradıldığını, müvafiq e-məlumat bazası formalaşdırıldığını qeyd edib. Birdəfəlik ödənişlərin də məhz e-sistem üzərindən proaktiv qaydada həyata keçirildiyini vurğulayıb.

### Bizə bu təqdirəlayiq addımı alqışlamaq düşür

Bu sosial dəstəklə bağlı hərbiyönümlü qeyri-hökumət təşkilatları Prezident İlham Əliyevə təşəkkür məktubu göndəriblər. Məktubda müharibə iştirakçılarına göstərilən qayğıkeş, həssas münasibətin əhəmiyyətindən, əlillərin ehtiyaclarına uyğun onlara yaradılan şəraitin önəmindən və birdəfəlik ödəmənin minlərlə müharibə əlili olan vətəndaşlara, onların ailələrinə böyük dəstək olmasından bəhs edilib.

"Qarabağ Qaziləri" İctimai Birliyinin sədri Asəf Əliyev deyir ki, bu ödəmələr böyük əhəmiyyətə malikdir. Onun fikrincə, 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara və daxili işlər orqanları əməkdaşlarına sığorta pullarının verilməsi problem olaraq qalırdı. Prezident İlham Əliyevin fərmanı ilə həm şəhid ailələri, həm də Qarabağ əlilləri üçün birdəfəlik ödəmə problemi həll edildi.

Bu fərmana görə dövlət başçısına təşəkkürünü bildirən "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin sədri Füzuli Rzaquliyev isə qəzetimizə açıqlamasında vurğuladı ki, bu addımla dövlət heç bir fərq qoymadan bütün qazilərə dəstək göstərdiyini bir daha təsdiqlədi: "Bu təqdirəlayiq addımı biz alqışlayırıq. Məhz belə məsələlərin daim diqqətdə saxlanılması təqdirəlayiq haldır".

F.Rzaquliyev vurğulayır ki, müharibə əlillərinə uşaq pulu da verilir. Lakin bu çox az işıqlandırılan məsələlərdəndir. Belə məqamları nəzərə alaraq göstərilən dəstəyin hərtərəfli olduğunu diqqətə çatdırmaq zəruridir.

Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmə dövlətin şəhid ailələri, müharibə əlilləri və qazilərə göstərdiyi dəstəyin növbəti təzahürüdür. Hazırda şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsi başlıca prioritetlərdən biridir. Bu kateqoriyalardan olan vətəndaşlara xüsusi qayğı onların sosial müdafiəsi sahəsində ardıcıl olaraq mühüm addımların atılmasına imkan verir.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# "Azərişıq" ASC ölkənin bütün regionlarında yenidənqurma işlərini davam etdirir

## Neftçala rayonunun 4 kəndinin elektrik şəbəkəsi yenidən qurulur

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, "Azərişıq" ASC tərəfindən həyata keçirilən investisiya layihəsi çərçivəsində Neftçalanın Qaraqaşlı, Bəştalı, Cəngan, Ərəbqardaşbəyli kəndlərində işlərə başlanılıb.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, ötən əsrin 60-ci illərindən istismarda olan 4 kəndin elektrik şəbəkəsi tamamilə yenidən, müasir formada qurulacaq.

Hər zaman olduğu kimi, "Azərişıq" ASC-nin əsas hədəfi abonent məmnunluğunu təmin etməkdir. Bu məqsədlə Neftçalanın Qaraqaşlı, Bəştalı, Cəngan və Ərəbqardaşbəyli kəndlərində də abonentlər keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz olunacaq.

Bu kəndlərdən başqa, rayonun Mayak-1, Qırmızı Şəfəq və Yenikənd kəndlərində də tezliklə işlərə start veriləcək.

Xatırladaq ki, investisiya layihəsi regionlarda 100-dən çox kəndi əhatə edir.

# Ümidlər Budapeştə qaldı





**UEFA Çempionlar Liqası**
**3-cü təsnifat mərhələsi, ilk oyun**
**"Qarabağ" (Azərbaycan) - "Ferensvaroş" (Macarıstan) - 1:1**
**Qollar: Ovusu Kvabena, 34 - Frank Boli, 17**

**Ağdamın "Qarabağ" klubu avrokuboklarda növbəti oyununu keçirib. Azərbaycan çempionu UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsinin ilk matçına çıxıb.**

Komandamız Tofiq Bəhramov adına Respublika Stadionunda Macarıstan çempionu "Ferensvaroş"u qəbul edib. Matçın ilk hissəsində azarkeşlər 3 qol izləsələr də, bunun biri hesaba alınmayıb. "Ferensvaroş"un hesabı açmasına baxmayaraq, Ağdam futbolçuları Ovusunun sayəsində bərabərlik topunu vurmağı bacarıb. İlk yarının sonlarında isə "Qarabağ"ın heyətində İbrahima Vadjinin vurduğu ikinci qolu VAR sisteminə baxıldıqdan sonra ləğv edilib.

İkinci hissədə mübarizə daha çox meydanın mərkəzində keçib. Nəticədə qarşılaşmada başqa qol olmayıb. "Qarabağ" cüzi üstünlüyünü qola çevirə bilməyincə evdə bərabərliklə kifayətlənib.

Komandalar arasında cavab oyunu avqustun 9-da Budapeştdə keçiriləcək.

# Çövkən yarışlarına start verilib

**1 avqust 2022-ci il tarixdə Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə Çövkən Milli Atüstü oyunu üzrə "Şuşa Kuboku" turnirinə start verilib.**



6 komandanın iştirakı ilə təşkil olunacaq yarışlarda ümumilikdə 10 oyun keçiriləcəkdir.

Təşkil olunmuş püşkatmanın nəticələrinə əsasən 3 güc səbətindən eyni reytinqə sahib olan komandalar iki qrupa bölünmüşdür. A qrupunda "Sərhədçi Dilbaz", "Sərhədçi Qarabağ" və "Polad" komandaları, B qrupunda isə "Köhlən", "Omar" və "Buta Qolden" komandaları yer almışdır.

Kubokun açılış gününün ilk oyununda "Sərhədçi Dilbaz" komandası rəqibi "Sərhədçi Qarabağ" komandası üzərində 3-2 hesablı qalibiyyət əldə edib.

İkinci görüş isə "Omar" komandasının "Köhlən" komandası qarşısında 3-0 məğlubiyyəti ilə nəticələnib.

Xatırladaq ki, turnir 01, 02, 03 avqust 2022 -ci il tarixlərdə qrup oyunları, 04 avqust 2022-ci il tarixdə yarımfinal, 06 avqust 2022-ci il tarixdə isə final mərhələləri ilə davam edəcəkdir. Qrup, yarımfinal və final oyunları Binə Atçılıq Mərkəzi ərazisində keçiriləcəkdir.


## "Azərişıq" ASC Salyan rayonu, Şorsulu kəndlərinin ərazilərində 10 kV-luq hava xəttinin, KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1: Salyan rayonu, Şorsulu kəndlərinin ərazilərində 10 kV-luq hava xəttinin, KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması.

İştirak haqqı 750 manat

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namiq Heybətov
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: **namiq.heybetov@azerishiq.az**
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə(sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə Vergi Bəyannaməsi);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);*
- *müvafiq lisenziya və icazələr;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;*
- *podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(www.tender.gov.az).**

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 sentyabr 2022-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 sentyabr 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 sentyabr 2022-ci il saat 15:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***



## BİLDİRİŞ

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən elan edilmiş 330 kV "Cənub Elektrik Stansiyası - Ələt Günəş Elektrik Stansiyası" Elektrik Veriliş Xəttinin tikilməsi və elektrikquraşdırma müqaviləsinin müsabiqənin müddəti podratçının sorğusuna əsasən uzadılır.

İddiaçıların tenderdə iştirak etmək üçün sənədlərin son təqdimolunma tarixi (tender təklifi və bank təminatı istisna olmaqla) 20 sentyabr 2022-ci il saat 15:00-dək uzadılır. Bank təminatının və tender təklifinin son təqdim olunma tarixi 28 sentyabr 2022-ci il saat 15:00-dək uzadılır.

İddiaçıların tender təkliflərinin açılışı 29 sentyabr 2022-ci il saat 15:00 tarixinə keçirilir. Tender təklifləri Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanda (onlayn qaydada) açılacaqdır.

***Tender komissiyası***



## BİLDİRİŞ

"Azərenerji" ASC tərəfindən elan edilmiş
- 220 kV-luq "Qobu ES - Pirəkəşkül KES" EVX-nin tikintisi və elektrikquraşdırma işləri;
- 220 kV-luq "Xızı KES-Pirəkəşkül KES" EVX-nin tikintisi və elektrikquraşdırma işləri;
- 220 kV-luq "Xızı KES-Yaşma YS" EVX-nin tikintisi və elektrikquraşdırma işləri müsabiqələrin müddəti podratçının sorğusuna əsasən uzadılır.

İddiaçıların tenderdə iştirak etmək üçün sənədlərin son təqdimolunma tarixi (tender təklifi və bank təminatı istisna olmaqla) 20 sentyabr 2022-ci il saat 15:00-dək uzadılır.

Bank təminatının və tender təklifinin son təqdimolunma tarixi 28 sentyabr 2022-ci il saat 5:00-dək uzadılır.

İddiaçıların tender təkliflərinin açılışı 29 sentyabr 2022-ci il saat 15:00 tarixinə keçirilir. Tender təklifləri Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanda (onlayn qaydada) açılacaqdır.

***Tender komissiyası***


# "Din araşdırmaları" jurnalının növbəti sayı nəşr olunub

**Azərbaycan İlahiyyat İnstitutunun (AİI) elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan "Din araşdırmaları" jurnalının səkkizinci sayı dərc edilib.**

Jurnalın məqsədi ölkəmizdə və dünyada din sahəsində tədqiqat aparan alimlərin məqalələrini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir. İldə iki dəfə dərc olunan jurnalın yeni sayında 8 məqalə yer alıb. Din sosiologiyası, təfsir, islam məzhəbləri tarixi, fəlsəfə, islam hüququ, təsəvvüf, multikulturalizm və sair məsələlərə dair qələmə alınmış elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilmişdir. Jurnalda Azərbaycan, türk və ərəb dillərində də məqalələr dərc olunmuşdur. Dərginin redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Pakistan, Qazaxıstan, İran və İsveçrənin ali təhsil müəssisələrində çalışan tanınmış alimlərdir.

Qeyd edək ki, jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun hazırlanıb.

Azərbaycan İlahiyyat İnstitutu ali dini təhsil üzrə ixtisaslaşmış müəssisədir. İnstitut din sahəsi də daxil olmaqla, ictimai elmlərin müxtəlif istiqamətlərində monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalələrin nəşrinə üstünlük verir.

Akademik nəşrlər ali təhsil müəssisələrinin elmi fəaliyyətinin əsas göstəricilərindən biridir. Gələcəkdə "Din araşdırmaları" jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsi nəzərdə tutulur.




"Din araşdırmaları" jurnalı 2020-ci ildən AAK tərəfindən fəlsəfə və psixologiya üzrə elmi məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilib.

***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün nasosların satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 09 avqust 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün radionaviqasiya avadanlıqlarının satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 09 avqust 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***









"Aztransavto" MMC-nin №0061895 nömrəli icazə vərəqəsi (Rusiya 3-cü ölkə İran) itdiyi üçün etibarsız sayılır.



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Gənclər və İdman Nazirliyinin rəhbərliyi və kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə qardaşı

**MAİS HÜSEYNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5964
Sifariş 2141
Qiyməti 40 qəpik